Azərbaycan.-2025.- 5 oktyabr (№ 214).- S.7.

# Müəllim ömrü

**Müəllim - bu, cəmiyyətin inkişafında, gənclərin formalaşmasında və milli dəyərlərin qorunmasında əvəzsiz rola malik olan bir peşədir. Hər bir müəllim öz ömrünü yalnız dərs vermək, tələbələrini təhsillə tanış etmək ilə deyil, həm də onların ruhunu, həyatına olan baxışlarını və gələcəyini formalaşdırmaqla keçirir. Hər bir müəllimin həyatı, böyük bir zəhmət və sevgi ilə yazılmış bir əsər kimidir. Müəllim ömrü isə bu əsərin necə yazıldığını, hansı məqamların önəmli olduğunu və həyat yolunun nə qədər çətin, həm də mənalı olduğunu göstərir.**



Hər bir insanın yüksək savadlılığa, peşəkarlığa yiyələnməsində ən böyük rol müəllimin üzərinə düşür.

Müəllim yalnız bilik ötürən deyil, eyni zamanda şəxsiyyət yetişdirən bir yaradıcıdır. O, tələbələrinə biliklərdən daha çox həyat təcrübəsi, düzgün qərarlar vermək bacarığı və hər zaman yaxşılıq edərək, başqalarına kömək əli uzatmağı öyrədir.

Belə müsbət keyfiyyətə malik olan müəllimlərdən biri də yüksək pedaqoji məharətə sahib olan Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayenin təşkili və idarə edilməsi" kafedrasının dosenti, texnika elmləri namizədi, bu günlərdə 80 yaşını qeyd edən Eldar Rəhimovdur.

Qocaman pedaqoqun həyatına nəzər saldıqda görürük ki, o, 1945-ci ilin sentyabr ayında, Quba rayonunun Rustov kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Eldar müəllim 1963-cü ildə dünyaya göz açdığı kənddə orta məktəbi bitirmiş, 1965-1970-ci illərdə Azərbaycan Politexnik Universitetinin İnşaat fakültəsinin "Sənayə və mülki tikinti" ixtisası üzrə təhsil alaraq mühəndis ixtisasına yiyələnmişdir. Politexnik institutunu başa vurduqdan sonra o, ixtisası üzrə müxtəlif vəzifələrdə çalışıb. 1994-cü ildən bu günə qədər isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayenin təşkili və idarə edilməsi" kafedrasının dosenti vəzifəsində işləyir. 1992-ci ildə texniki elmləri üzrə namizədlik dissertasiyasını müdafiə edən Eldar Rəhimov 31 ildən çoxdur ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayenin təşkili və idarə edilməsi" kafedrasında elmi pedaqoji fəaliyyətlə məşğul olur. Tikinti sahəsində yüksək peşəkarlığa və təcrübəyə malik olan Eldar müəllim eyni zamanda nəzəri pedaqoji fəaliyyətində əldə etdiyi zəngin təcrübə ilə bilik və bacarığını sabahkı tikinti mühəndislərinə öyrədir. O, yüzlərlə tələbənin tikinti mühəndisliyi sahəsində yüksək biliyə nail olmasına əvəzsiz töhfəsini verir. Buna səbəb isə Eldar Rəhimovun tələbələrə göstərdiyi böyük qayğıkeşliyi, tələbkarlığı olub. O, eyni zamanda çalışdığı universitetin professor-müəllim və tələbə heyəti arasında hörmət, eləcə də böyük diqqət qazanıb. Bu gün onun yetişdirdiyi tələbələr, magistrlar ölkədə bir çox tikinti şirkətində, elmi-tədqiqat institutunda, həm də AzMİU-da onunla bərabər, çiyin-çiyinə müvəffəqiyyətlə çalışırlar.

Eldar müəllimin həyatı, əslində, böyük bir təhsil və elm yolunun hekayəsidir - çətinliklərlə, fədakarlıqla, amma eyni zamanda yüksək məqsədlərə doğru davam edən mübarizə dolu bir yoldur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***